# AZPERGO

PERGOLA SİSTEMLƏRİ



BF GROUP
OF COMPANY

# MƏHSUL KATALOQU

# Bioklimatik Pergola



“Bioklimatik Pergola” 4 fəsildə istifadəsi mümkün olan innovativ çardaq sistemidir. Sistem pultla açılıb-bağlanan hərəkətli alüminium tavandan ibarətdir. Tavan panellərinin istənilən bucaq dərəcəsində döndərilə bilməsi sayəsində günəş işığını və havalandırmanı tənzimləmək mümkündür. Tavan panellərinin üfüqi istiqamətdə yığılması isə açıq səma effektini yaradır. Alüminium sistem bağlı olduqda isə, tavan düz və hermetik olur. Tavanın yan profillərində led işıq kanalları yerləşdirilib.

Alüminium konstruksiyalı olduğu üçün istənilən rəng seçimi və korroziyaya uğramaması, yağış sularının gizli su kanalları vasitəsilə axıdılması da “Bioklimatik Pergola”nın üstünlüyüdür.

Kənarlarını istəyə uyğun olaraq sürmə cambalkon, giyotin və ya hebesibe ilə bağlamaq mümkündür.

“Bioklimatik Pergola” şəxsi evlərdə, binaların terraslarında, otel və restoranlarda istifadə olunur.





# Qış bağçası



Hər mövsüm təbiətdən zövq almaq istəyirsinizsə, “Qış bağçası” sistemi ən ideal variantdır! Həm estetik görüntü, həm maraqlı dizayn elementi kimi diqqət çəkən bu sistemin bir sıra özəllikləri var:

Sistem alüminium konstruksiyalı olduğu üçün korroziyaya uğramır, həmçinin istənilən rəng seçimindən yararlanmaq şansını verir.

Sistemin bir tərəfi ev və ya həyət divarına bərkidildiyi üçün küləyə davamlıdır. Yağış suları isə gizli su kanalları vasitəsilə axıdılır.

“Qış bağçası”nın ən gözəl tərəfi isə tavanın şüşə olmasıdır ki, bu da işıqlı ortam yaratmaqla yanaşı, sizə göy üzünü izləmək imkanını verir.





# Pergola Tent



“Pergola Tent” tavanı açılıb bağlanan çardaq sistemidir. Binaların estetik görünüşünə rəng qatır. Bu sistemlə geniş məkanları bağlamaq mümkün olur.

Tavan çadırını hava şəraitindən və istəyinizdən asılı olaraq aça və ya yığa bilərsiniz. Tavanın çadırı açıldıqda bir tərəfə yığılır.

Və ən əsas məqam! Tavan çadırı qar, su və günəş işığına dözümlüdür.

“Pergola Tent”in otel, restoran və kafelər üçün istifadəsi məqsədə uyğundur.



azpergo.az
office@azpergo.az
+99450 550 29 99
azpergo